**Çox hörmətli Nəriman müəllim!**

Müasir poeziyamızın görkəmli nümayəndələrindən biri kimi sizi 90 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Keçən əsrin 50-60-cı illərindən başlayaraq siz milli poeziyamıza sanballı töhfələr verməklə bir-birindən gözəl və rəngarəng əsərlərinizlə Azərbaycan oxucularının sevimlisinə çevrilmisiniz. Dahi Əlibəy Hüseynzadənin doğulduğu Salyanda və eləcə də Neftçalada tanınmış qələm ustalarından Ə.Kürçaylı, X.R.Ulutürk, A.Əlizadə, O.Rza, ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru, professor İ.Əbilovla və başqa görkəmli ziyalılarla həmişə ünsiyyədə olmusunuz. Xüsusilə X.R.Ulutürklə çox yaxın dostluq əlaqələriniz olmuşdur.

AYB Muğan bölməsinin üzvləri, Biləsuvar Regional Mədəniyyət İdarəsinin mədəniyyət və incəsənət işçiləri adından sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə milli ədəbiyyatımızın inkişafı yolunda bundan sonra da böyük yaradıcılıq uğurları arzulayırıq.

***Nəbi İBRAHİMLİ****, AYB Muğan bölməsinin sədri,* ***Əlisultan SADIXOV****, Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi*